Ədəbiyyat Qəzeti №51-52
26 dekabr 2025-ci il 23

# Hüseyn ƏSGƏROV-70



Hörmətli Hüseyn müəllim!

Sizi - tanınmış yazıçı-publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1955-ci il dekabrın 13-də Şərur rayonunun Şəhriyar kəndində anadan olmusunuz. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdikdən sonra bir il "Şərq qapısı" qəzetində, iyirmi üç il Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışmısınız. Bu illər ərzində yüzlərlə felyeton və digər publisistik yazıların, iri həcmli telelayihələrin rəhbəri, ictimai-siyasi, ədəbi-bədii yönümlü telefilmlərin və verilşlərin ssenari müəllifi və aparıcısı olmusunuz. 1988-ci ildə "Ayrılıq" ədəbi-bədii, publisistik proqramınız Azərbaycan efir məkanında ən çox reytinqi olan verilişlərdən birinə çevrilib. Həmin veriliş 1989-cu ildə Naxçıvanda baş verən sərhəd hərəkatına stimul verib. Erməni silahlı qüvvələrinin sərhəd kəndlərimizə təcavüzü barədə ilk telereportaj da sizə məxsusdur.

Siz Naxçıvan televiziyasında ilk səfər reportajlarının, yol qeydlərinin müəllifisiniz. Sizin qonşu xarici ölkələrdən hazırladığınız süjetlər tamaşaçılar tərəfindən həmişə maraqla qarşılanıb.

Doxsanıncı illərdə digər kütləvi informasiya vasitələri ilə də əməkdaşlıq etmisiniz. "Xalq qəzeti"nin Naxçıvan MR üzrə müxbiri vəzifəsində fəaliyyət göstərmisiniz. 2001-ci ildən 2011-ci ilədək Naxçıvan MR Ali Məclisində "Mətbuat və İctimaiyyətlə Əlaqələr" şöbəsinin müdiri vəzifəsində dövlət qulluğunun baş müşaviri kimi çalışmısınız. 2011-2022-ci illərdə isə Naxçıvan MR Səhiyyə Nazirliyində mətbuat xidmətinin rəhbəri olmusunuz.

Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21iyul 2025-ci il tarixində imzaladığı Sərəncamla siz "Tərəqqi" medalı ilə təltif olunmusunuz. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, 2021-ci ilin prezident mükafatçısı, Azərbaycan Yazıçılar Birliyi on üçüncü qurultayının iştirakçısısınız.

"Heraklın on üçüncü qoçaqlığı", "Aylı bir gecə", "Gülüşlərin cingildəsin saz kimi", "Naxçıvan səhiyyəsinin tarixi", "Mirzə Cəlilin satira desantları Naxçıvanda", "Biz necə mütaliə edirik", "Odla su arasında", "Həyat cəsurları sevir", "Bu da bir ömürdür", "Mədinənin bəlalı məhəbbəti" kitablarının müəllifisiniz.

Hörmətli Hüseyn müəllim!

Bir daha sizi 70 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**